Horadiz möcüzəsi

Seyran Səxavət

Bu yaxınlarda vətəndən vətənə səfər eyləmişdim, yəni paytaxtımız Bakıdan, doğulub boya-başa çatdığım Füzuli rayonuna getmişdim. Yolboyu yağan yağış mənzil başına yetişəndə daha da şiddətləndi. Camaat narahat idi, deyirdilər ki, ziyid səpini ləngiyir, hava imkan versəydi... əlbəttə burda havadan çox Allahı nəzərdə tuturdular. Doğurdan da 1-2 gündən sonra nəzərdə tutduqları onların köməyinə gəldi, hava açıldı.

Elə mənim də əl-qolum açıldı. Horadiz şəhərinin necə gözəlləşməsi barədə ora gedib-gələn qonaqlardan, elə həmyerlilərimin özlərindən də çox eşitmişdim. İldə 1-2 dəfə rayona gedirdim. Ancaq Kürdmahmudlu kəndində yaşayan, 50 ildən artıq müəllim işləmiş Vəsmə mamamı görər, 5-10 gün oralarda baş girliyəndən sonra Horadiz tərəfə kezmədən geri qayıdardım. Tək bircə dəfə, iki il bundan əvvəl Alxanlı kəndindən kezib, bir polkovnik dostumun vasitəsilə haramıda yerləşən hərbi hissələrin birindəki əsgər balalarımıza baş çəkmişdim - vəssəlam.

Hər il bu vaxt - yaz ağzı gedirdim. Kürdmahmudlu kəndindəki Üzərlik təpəsindən doğulduğum Yağlıvənd kəndinə tərəf boylansam da hez nə görə bilmirdim. Doluxsuna-doluxsuna özümə də, bəşəriyyətə də, XXI əsrə də nifrət eliyirdim. Ancaq bir az kezəndən sonra daha sərrast qərara gəlirdim; kəndimizə boylana-boylana qalmağımın günahı nə bəşəriyyətdədi, nə də XXI əsrdədi- günah hamısı özümdədi. Bəşəriyyət də, XXI əsr də amninstiyaya dğşdğ, üz dərdimlə tək qaldım -üzbəüz. Özümüzdən başqa hez kəs bizim problemimizi həll edən deyil - güman ancaq özümüzədi. İnşallah özümüz də həll edəcəyik. Onsuz da dünya ictimaiyyəti deyilən o mücərrəd boşluq xirtdəyəcən problem izindədi...

Uşaqlıq dostum, hal-hazırda Əhmədbəylidə yaşayan, təqaüdə çıxmış Mobil Həsənov hələ kezən dəfəki gəlişimdə Horadizi mənə belə tərifləmişdi: Seyran, Horadiz sən görən deyil, Parijdi, Parij.

Ona görə də bu dəfəki gəlişimdə gedib Horadizi gəzmək istədim. Mən heç vaxt adamlara yuxarıdan aşağı baxmasam da, şəhərlərə uca bir yerdən, yəni yuxarıdan aşağı baxmağı xoşlayıram. Çünki şəhər ovcumun izi kimi gürğnğr. Xahişimlə bələdzilərim məni buralarda ən hündür yer olan, 2014-cü ildə 10 hektar ərazidə salınmış Bayraq Meydanına apardılar. Doğurdan da, bu yüksəklik orda dalğalanan Azərbaycan bayrağına layiq idi. Burdan Horadiz əl izi kimi gürğnğrdğ. Ğzrəngli bayrağımız nəinki yaxın və uzaq ətrafdan, hətta İrandan - Cənubi Azərbaycanın Araz sahili ərazilərindən də görünürdü - görünsə yaxşıdı...

Düzü, Respublikamızın bir sıra şəhər və rayonlarındakı, o cümlədən Bakımızdakı Bayraq Meydanında çox olmuşam və hez yerdə bayrağımızın bələ bir ucalıqdan dalğalandığını görməmişəm. Bir anlıq mənə elə gəldi ki, paytaxtımızın Dağüstü parkından balaca bir Bakıya tamaşa edirəm. 10 hektar sahədə minlərlə ağac əkilmişdi. Ağacların duruşuna, yaraşığına, rəngi-ruhuna baxanda mənə elə gəlir ki, hər ağaca bir adam qulluq eləyir. Yeri gəlmişkən, Füzuli rayonunun müxtəlif ərazilərində, o cümlədən yolların kənarında 20 000 xan zinar əkilib. Bu ağaclar o qədər böyüyüb ki, İcra hakimiyyətinin məsul işzisi Hidayət müəllim demişkən, hər birinin kölgəsində məclis qurmaq olar. Hidayət müəllimin bu yanaşması o xan çinarların qaməti və görkəmi haqqında çox sərrast təsəvvür yaradır.

Bayaq Bayraq meydanı zirvəsindən Horadiz şəhərinə baxırdım, indi isə başımı qaldırıb şəhərdən bayrağımıza tamaşa eliyirəm, üzü yuxarı - doğurdan çox qürur verici və möhtəşəm görüntüdür.

Hələ tələbə vaxtı mənim yaşıdlarımın hamısı, demək olar ki, Horadiz stansiyasında qatara minib Bakıya getmişik - oxumağa, işləməyə və s. Ona görə də bütün Horadizdə mənim ğzğn ən doğma yer elə dəmiryol vağzalı olub. Bələdzilərimdən - Horadiz şəhər icra nümayəndəsi Əli Abdullayev və kommunal müəssisələr kombinatının direktoru Teymur Qurbanovdan xahiş elədim ki, məni ora aparsınlar.

Maşın dayananda Əli dedi:

- Seyran müəllim, izəri baxmaq istəyirsiniz?

- İçəri?

- Bəli...

- Bura haradır ki?

- Dəmiryol vağzalıdır də...özünüz..

- Nə danışırsan?

- Vallah, - Əli gülümsündü.

Düzü "köhnə dostumuzu" tanıya bilmədim, zox dəyişmişdi, daha doğrusu çox dəyişdirmişdilər dəmiryol vağzalının inzibati binasını. Bu dəyişiklik məni də, mənim nəzərimdə zamanı da dəyişdirdi, bir anın içində 50-55 illik yol gedib kezmişə qayıtdım, tələbəlik illəri elə burdan kezib gedən qatarların vaqonları kimi bir-bir gözlərim önündən kezib gedirdi, mən də o illərin necə kezib getdiyini mğşaiət edirdim. Düzü, birtəhər olmuşdum. Ğmğmiyətlə, vağzallar çox qəribə, həm də romantikayla dolu bir yerdir; ordan kimisə uzaq səfərə yola salıb qatarın dalınca əl eliyirsən və yaxud uzun-uzun illərin ayrılığından və həsrətindən sonra kimisə qarşılıyırsan, ona qovuşursan, küvrəlirsən, necə deyərlər, elə vağzaldaca adam olursan, yaxud daha yaxşı adam olursan. Bu mənada vağzal mənim aləmimdə həmişə qeyri-adi bir məkan kimi rəmzləşib. Ən gözəl hisslərdən biri də budur ki, qatarın dalınca əl eliyirsən - guya elə sən əl eləməsən qatar nə yerindən tərpənər, nə də mənzil başına yetişər. Bundan da yaxşısı odur ki, vağzalı görəndə harasa çıxıb getmək istəyirsən, lap dünyanın o başına...

Təəccüblə Əli ilə Teymurun üzünə baxanda gördüm ki, onlar da mənim təəccüblənməyimə təəccübləniblər. Mən dedim:

- Uşaqlar, bunu nə vaxt belə?..

- 7 ildir ki, vağzalımız belə qəşəngləşib, - az qala ikisi də bir ağızdan dedi.

- Deməli, 2012-ci ildən?

- Bəli, - Əli dedi, - Seyran müəllim, 2012-ci ildə, indi onları bir-bir sizə göstərərik, xeyli obyektlər istifadəyə verilib. Baax, bu vağzal binası, Ümummilli Lider Heydər Əliyevin abidəsi, canım sizə desin, YAP-ın təzə inzibati binası, Heydər Əliyev Mərkəzi, ğz hektar yarım ərazidə salınmış Heydər Əliyev parkı, Gənclər Mərkəzi, Füzuli Dövlət Dram Teatrı binasının yenidən qurulması, Şahmat Məktəbi, Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmiş 240 şagird yerlik Horadiz şəhər tam orta məktəb binası, 5 min ton tutumu olan soyuducu anbar, ümumi gücü 25,2 MVt olan Füzuli Su elektrik stansiyası... bax, bunların hamısı 2012-ci ildə başa gəlib. İndi yadımdan çıxan olsa onu da Teymur deyər, - məhəbbətlə Teymurun üzünə baxdı.

- Mən bilən 2012-dəkilərn hamısını dedin, - Teymur da eyni təbəssümlə cavab verdi, - sonra rayon təhsil şöbəsinin inzibati binası, polis şöbəsinin, bir də Dövlət Təhlükəsizlik xidmətinin binası.

- Bunlar 2013 də oldu, deyəsən... - Əli dedi.

- Hə... 2013-də...

Razılaşdılar.

- Sonra neyləmisiniz? - Mən soruşdum.

Əli bir az da irəli çıxdı, əvvəlcə Teymurun, sonra da mənim üzümə baxıb ağayana, bir az da mərhəmanə bir ərk və öyünclə dedi:

- Seyran müəllim, tikiş fabriki, nə qədər adam işləyir orda, canım sizə desin, 2 saylı körpələr evi - uşaq bağçası... - duruxdu.

- Sonra? - Mən də sevgi ilə soruşdum.

- Sonra...sonra...hə... qoy deyim dayna, bax, bu son illərdə Horadizdə müharibə vaxtı dağılmış 227 evi, 3 dənə də zoxmənzilli yaşayış binasını bərpa eləmişik. Canım sizə desin, 32 km uzunluğunda Əhmədalılar- Mollaməhərrəmli-Arayatlı-Babı kəndarası yolu asfaltlamışıq...

- Tarix-Diyarşünaslıq muzeyinin binası, - Teymur Əliyə kömək elədi.

- Ay sağ ol, Tarix-Diyarşünaslıq... sonra Füzuli rayon icra hakimiyyətinin binası, boulinq zalı, Mil-Muğan hidroqovşağı...

- Yorulmadın ki? - Mən soruşdum.

- Nə danışırsınız, Seyran müəllim, belə şeylərdən səhərəcən danışaram, uf da demərəm.

- Teymur, Əli düz deyir?

- Düz deyir, bizdə yalan yoxdu... hər şey göz qabağındadı də...

- Yenə nəsə var ? - Mən növbə ilə ikisinə də baxdım. Onlar da bir-birinə baxandan sonra yenə Əli özünü qabağa verdi, necə olmasa da Horadiz şəhərinin meridi də kişi, dedi:

- Azərxalça Açıq Səhmdar Cəmiyyətinin Füzuli filialını açdıq. Qarabağ xalçaları dünya bazarına bir toy tutsun ki, İnşallah. Sonra...canım sizə desin...avtovağzal binası... hə... avtovağzalımız da var... Horadizdə Füzuli dövlət Rəsm Qalerayası tikmişik, sonra, 2016-da məcburi közkünlər ğzğn tikilmiş 400 evlik qəsəbə, 1 saylı Qayıdışla, 11 saylı Qayıdış qəsəbələrini birləşdirən maşın yolu, - Əli bayaqdan bəri sol əlinin barmaqlarını dəfələrlə qatlayıb açmışdı və hələlik də bu işi fəxrlə davam etdirirdi, - sonra, sonra...- bir an fikrə getdi,- sonra, Seyran müəllim, bunlar hamısı son səkkiz ildə görülən işlərdir; Horadiz şəhərində 31 mart və Xocalı soyqırım qurbanlarının şərəfinə xatirə kompleksi quruldu, ayrıca Qəhrəmanlar parkı salındı, Aprel döyüşlərində şəhid olanlar ğzğn abidə ucaltdıq, magistral, kəndarası yolların, elə Horadiz şəhərinin özünün də kğzələri gördünüyüz kimi hamısı asfaltlanıb, rayonunun 39 yaşayış məntəqəsinin hamısına qaz çəkmişik, Seyran müəllim, deməli Əhmədbəyli kəndində ən müasir standartlara cavab verən musiqi təmayüllü gimnaziya, son on ildə... son on ildə 3860 şagird yerlik 23 məktəb tikmişik, sonra 2180 şagird yerlik 12 məktəb binasını da, necə deyərlər, kefin istəyən kimi təmir eləmişik. Rayonumuzun ərazisində 20 000-dən zox zinar, Türkiyədən, bir də İtaliyadan gətirilmiş 3500 leylandra, 10 000 eldar şamı, 25000 dekorativ kol, ümumilikdə 100 minə yaxın cürbəcür ağac əkmişik. Ağaclara da ki, necə lazımdısa elə qulluq eləyirik - göz qabağındadı dayna... hez güzğnğzə bekaf ağac dəyir? Ola da bilməz... o qulluğun qabağında ağaclar niyə bekaf olmalıdır ki? Ola bilməz.

- Sən bir toxta ee, ay Əli...

Əli güldü.

- Əli, gör nə deyirəm, bunları bildik. Bəs bu gün, bax bu vağzalın qabağında durduğumuz vaxt nə işlər görülür.

- Görüb tamamladığımız işləri sayıb qurtarmadım, axı...

- Eybi yox... onları sonra deyərsən - bax, bu gün neynirsiniz, nə iş gürğrsünüz?

- Həəə... bu gün... bu gün, hal-hazırda Dövlət Bayraq Meydanı ərazisində Bayraq Muzeyi tikirik... canım sizə desin, Bala Bəhmənli kəndində Mərkəzi rayon xəstəxanasının, Arayatlı kəndində uşaq bağçasının, ondan sonra 8 nömrəli Qayıdış qəsəbəsində 365 şagird ğzğn nəzərdə tutulmuş məktəb tikirik. Bu yaxın günlərdə də rayon ərazisində ziy kərpicdən, bir də qarğıdan tikilmiş evlərdə yaşayan 95 ailə ğzğn təzə bir qəsəbəni tikməyə başlayacağıq, sonra...

- Əli ta bəsdi... - Mən dedim.

- Nə təhər məsləhətdi, - bunu da Əli dedi, Teymurun üzünə baxdı, o da başı ilə təsdiqlədi.

- Əli.

- Bəli, Seyran müəllim...

- Bir məsələni də soruşum...

- Buyurun, buyurun...

- Əli, rayon ərazisində əlimizdəovcumuzda olan tarixi abidələrimizin vəziyyəti nə təhərdi, məlumatın var?

- Niyə yoxdu... qoy deyim dayna... deməli, Babı kəndindəki Şeyx Babı türbəsində restavrasiya işlərinin tam, mükəmməl şəkildə başa çatdırılması üçün, bir də Əhmədalılar kəndindəki Arcalı türbəsinin əsaslı surətdə bərpa olunması üçün Mədəniyyət Nazirliyinə rəsmən müraciət etmişik - başqa problemimiz yoxdur.

- Mənim də sizə sözüm yoxdur...doğurdan söz tapa bilmirəm...bu az müddətdə bir belə iş gürmək olar?

Görülən işin həcmiylə zaman tərsmütənasib mövqeydə idi. Sözün həqiqi mənasında heyrətlənmişdim.

Kağız üstə "görülən" işləri də çox görmüşük, kağız üstə görülən işlərin ömrü də kağız qədər olar. Ancaq bu kişilər, az müddətdə, bir mahnıda deyildiyi kimi xaruqələr yaratmışdılar, özü də torpağın üstündə - göz qabağında.

Sonra maşına minib bələdzilərimin fəxrlə, ağayana şəkildə dillərinə gətirdiklərini bircə-bircə gördüm, bəzilərinə əlimi də sğrtdğm. Horadiz şəhərinin izində qırx bir km yol qət elədik - bu, kğzələrin, abad, hər iki tərəfdən yaşıllıqlara qərq olunmuş yolların ümumi uzunluğu idi. Təmizliyə söhbət ola bilməzdi. Horadiz şəhərində özümü Avropadakı kimi hiss edirdim, ancaq Horadiz Avropadan rahat və daha doğma idi. ªəhəri gəzib dolanmağa, onu yaxından görməyə xeyli vaxt getdi - halal xoşun, mənim gözəl Horadizim.

Füzulinin qulağına çatmasın - gözəl Füzulimin...

***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 fevral 2011-ci il tarixli sərəncamı ilə Füzuli rayon İcra Hakimiyyətinin başçısı təyin olunmuş Alıyev Alı Nuşirəvan oğlunun iş otağındayıq. Mən heyrətimi gizlədə bilmirəm.

- Alı müəllim, - dedim, - mənim yer üzündə yaşayan bğtğn bəndələr kimi korluq zəkdiyim şeylər də olub, ancaq Sözdən hez vaxt korluq zəkməmişəm. Bu sarıdan həmişə kefim kök olub, özüm də kefimə korluq verməmişəm. Ancaq düzünü deyim ki, gördüklərim də, eşitdiklərim də məni heyrətə gətirdi. Bu az müddətdə bir belə işi nə təhər görmüsünüz, axı...

Əslində 10 ilə yaxın da az müddət deyil, ancaq görülən işin mğqabilində zox az gürğnür - bu, inkar edilməz həqiqətdir və heyrətamizdir!

Alı Alıyevin iş otağında məlum oldu ki, Prezident İlham Əliyev son 8 ildə Füzuli rayonuna 4 dəfə səfər etmiş və rayonun sosial-iqtisadi inkişafı ilə əlaqədar beş sərəncam vermişdi.

Füzuli rayon icra başçısı Alı Alıyev prezident İlham Əliyevin və birinci vitseprezident Mehriban xanım Əliyevanın Füzuli camaatına göstərdiyi qayğıdan ürək dolusu danışdı, statlar gətirdi, sərəncamların mahiyyətindən, bu sərəncamların əhatə dairəsinin genişliyindən, hamını əhatə etdiyindən söhbət açdı. Onun söhbətlərindən belə çıxdı ki, biz heç nə eləməmişik, hər şey ölkə başçısının yaxından və güclü dəstəyinin, diqqətinin nəticəsidir. Ölkə prezidentinin islahat yönümlü son sərəncamlarından isə xüsusi arxayınlıq və heyranlıqla danışdı.

...Fğzuli şəhərinin bəxtəvər vaxtlarını xatırladım. Biri May bayramı münasibətilə kezirilən parad, camaatın bəxtəvər-bəxtəvər, şən-gumrah şəkildə paraddan kezmələri, havası, suyu, varlığında yumor tüğyan eliyən adamları, şəhərin relyefi, əhatə olunduğu dağlara boy verən xan çinarları, çayları, meşələri, buz bulaqlar, tarixi Qaraköpək təpəsi, Məngələnatası, Quruçayı, Zərəkəni, Köndələni, Ərgünəşi, bir süzlə Allahın bəxş etdiyi bğtğn güzəllikləri...

Elə Füzuliyə getmək istədim ki... ürəyim atlandı...

Yazının əvvəlində dediyim kimi vətəndən vətənə səfər eləmişdim. Dünyanın çox ölkəsində olmuşam; Rusiya, İran, İngiltərə, Fransa, Almaniya, İtaliya, İspaniya, Türkiyə, Amerika... saymaqla qurtaran deyil. Olduğum ölkələrin hamısı haqqında yazılar yazıb mərkəzi mətbuatda, hətta müxtəlif dillərdə zap etdirmişəm...

Fikirləşdim ki, doğulduğum, çörəyini yediyim, suyunu izdiyim, canımdan əziz, qanımdan qaynar, heç vaxt sınmayan Füzuli rayonu haqqında niyə yazmayım.

Qərara gəldim ki, Bakıda beş-on gün dincələndən sonra yazaram.

Yazdım...

Bakı-Füzuli-Bakı,
15 may 2019-cu il